# Samuxda Milli Qurtuluş Günü qeyd olunub

**Samuxda 15 İyun Milli Qurtuluş Günü münasibətilə rayon tədbiri keçirilmişdir.**



Samux Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulmuşdur.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev diqqətə çatdırmışdır ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü il iyunun 15-i bütün xalqımız üçün müqəddəs tarixdir: "Bu tarixi yaradan Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan Ulu Öndər Heydər Əliyevdir. Onun siyasi kursu bu gün Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir".

Sonra rayonun ictimai-siyasi və mədəni həyatında fərqlənən bir qrup şəxsə Samux Rayon İcra Hakimiyyətinin fəxri fərmanları və hədiyyələri təqdim olunmuşdur.

Tədbir Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı ilə yekunlaşmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 15 iyun, № 126.- S.15.